# Ailə ənənəsinə sadiq insan, görkəmli alim

**Azərbaycan neft sənayesinin son onillikdəki fəaliyyətinə retrospektiv nəzər yetirilərsə SOCAR-ın respublikada və onun hüdudlarından kənarda çoxsaylı möhtəşəm layihələr həyata keçirərək məhz bu illərdə transmilli şirkətə çevrildiyinin şahidi olarıq. SOCAR-ın biznesin genişləndirilməsi və inkişafı istiqamətində əldə etdiyi nailiyyətlərə karbohidrogen ehtiyatlarının axtarışı və kəşfiyyatı, neft-qaz hasilatı, nəqli, emalı və neft-kimya sahələrində əzmlə çalışan mütəxəssislərlə yanaşı, şirkətin təlim tədris və mütəxəssis hazırlığı ilə məşğul olan strukturlarında çalışan əməkdaşlar da öz töhfələrini verirlər. Onların sırasında Bakı Ali Neft Məktəbinin Ömürboyu təhsil fakültəsinin dekanı, professor Rəna Mustafayeva da vardır.**



Professor Rəna Mustafayevanın həyat yolunun enişli-yoxuşlu olduğunu qeyd etsək heç də yanılmarıq. O, Azərbaycanda meşə mühafizəsi işinin görkəmli təşkilatçısı və dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Mehdi Həsən oğlu Mustafayevin ailəsində dünyaya göz açmışdır. Mehdi Mustafayev 1914-cü ildə Qazax rayonunun Tatlı kəndində (indi Ağstafa rayonuna daxildir) anadan olmuş, erkən valideyn himayəsindən məhrum olduğundan ağır zəhmətə qatlaşmışdır. Doğma kəndində orta məktəbin birinci pilləsini bitirdikdən sonra 1931-1935-ci illərdə Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, sonrakı illərdə aqronomluqdan başlayaraq Şamaxıda və Samuxda bir sıra məsul vəzifələrdə çalışmışdır. 1941-ci ildə o, İrana göndərilmiş, geri qayıdandan sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində bir sıra məsul vəzifələri, o cümlədən kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsini tutmuşdur. 1947-ci ildən Tovuz rayon Partiya Komitəsinin 1-ci katibi seçilmiş və dövlətin bütün tapşırıqlarının yerinə yetirilməsinə nail olduğuna görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Mehdi Mustafayev 1953-1959-cu illərdə kənd təsərrüfatı nazirinin müavini, 1959-1979-cu illərdə Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədri vəzifələrində işləmişdir. Azərbaycanda meşə təsərrüfatının elmi əsaslarla inkişafı mərhum akademik Həsən Əliyevlə yanaşı, Mehdi Mustafayevlə də bağlı olmuşdur. Onunla uzun illər birgə çalışmış həmkarları Mehdi müəllimi əzmkar, zəhmətsevən bir təşkilatçı, müdrik rəhbər, təvazökar, mehriban və xeyirxah insan kimi xarakterizə edirlər.

Rəna Mustafayevanın anası Səmayə xanım evdar qadın olmuş, həyat yoldaşının yüksək vəzifəli şəxs olmasına baxmayaraq çox sadə həyat sürmüş, üç övladına da sadə həyat tərzinin üstünlüklərini aşılaya bilmişdir.

Bu məlumatları diqqətə çatdırmaqda məqsəd atanın şəxsiyyətinə məxsus olan müsbət cəhətlərin onun övladının da xarakterində tam şəkildə əks olunduğunu göstərməkdir. Bunun üçün Rəna xanımın həyat yoluna nəzər salmaq kifayətdir.

O, 1972-ci ildə Bakıda 189 nömrəli orta məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Kimya fakültəsinə daxil olmuş və 1977-ci ildə oranı bitirərək kimyaçı, kimya müəllimi ixtisaslarına yiyələnmişdir. Bu məqama xüsusi diqqət yetirmək çox vacibdir, çünki humanitar yönümlü ali təhsil müəssisəsinin məzununun sonrakı fəaliyyəti tamamilə mühəndisliklə, texnologiyalarla bağlı olmuşdur.

Gənc kimyaçı Rəna Mustafayeva əmək fəaliyyətinə Bakıdakı Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutunun Analitik tədqiqatlar laboratoriyasında mühəndis vəzifəsində başlamış, 1978-ci ildə Fiziki-kimyəvi tədqiqatlar laboratoriyasının rentgen qrupunun tərkibinə keçirilmiş, 1989-cu ildə həmin laboratoriyada kiçik elmi işçi vəzifəsinə, 1993-cü ilin yanvarında elmi işçi vəzifəsinə təyin edilmişdir. Bu illər ərzində o, p-Ksilol və n-Vinil-toluolun sintezi üçün katalizatorların-yüksəksilisium tərkibli seolitlərin əsasında hazırlanan seolit kompozisiyaların fiziki-kimyəvi xassələrinin öyrənilməsi üçün çox səmərəli tədqiqatlar apardığına və dəyərli nəticələr əldə etdiyinə görə 1994-cü ilin yanvarında attestasiya nəticəsində əvvəlcə 10-cu dərəcə, 3 aydan sonra isə 12-ci dərəcə ilə elmi işçi vəzifəsinə təyin edilmişdir. Həmin illər elmi-tədqiqat strukturlarının fəaliyyətində obyektiv tənəzzüllə xarakterizə olunurdu. Elmi-tədqiqat proqramları bağlanır, alimlərin cəmiyyətdə statusu zəifləyirdi. Bütün bunlara baxmayaraq gənc alim tədqiqatlarını böyük əzmlə başa çatdıraraq 1995-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Həmin illərdə ailədə mövcud olan çətinliklər-həyat yoldaşı dosent vəzifəsində çalışırdı, oğlanları 13 yaşlı Emilin və 10 yaşlı Rüstəmin qayğılarını çəkməklə bərabər, belə uğura imza atmaq gənc qadın üçün qəhrəmanlığa bərabər qiymətləndirilməlidir.

Elmi proqramların lazımsızlığı, alimlərin maddi vəziyyətinin ağırlığı və ailədəki maddi çətinliklər Rəna xanımı institutla vidalaşmağa vadar etmiş və o, 1995-ci ildən etibarən 2 il ərzində Respublika İncəsənət Gimnaziyasında kimya müəllimi kimi fəaliyyət göstərmişdir. Lakin elmi fəaliyyətə həvəs və başlanılan işlərin axıra çatdırılması arzuları onu tədqiqatları davam etdirməyə sövq etmişdir.

1997-ci ilin sentyabrından etibarən o, Azərbaycan Tibb Universitetinin Ümumi və toksikoloji kimya kafedrasında assistent vəzifəsinə qəbul olunmuş, 2000-ci ildə baş müəllim, 2006-cı ildən 2011-ci ilə kimi isə dosent vəzifəsində çalışmışdır. Rəna xanım seolitlərlə bağlı aktuallığını itirməmiş tədqiqatlarını davam etdirərək onları elmi nəşrlərdə dərc etdirmişdir. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi-pedaqoji fəaliyyəti nəzərə alınmaqla ona sözügedən kafedra üzrə "dosent" elmi adı verilmişdir.

Rəna xanım seolitlər əsasında katalitik sistemlərin sintezi və onların xassələrinin aromatik karbohidrogenlərin çevrilməsi proseslərində tədqiqi ilə bağlı uzun illər ərzində apardığı işlərin nəticələrini ümumiləşdirərək 2010-cu ildə "Fiziki kimya" ixtisası üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. Bundan sonra o, kafedranın professoru seçilmiş və elmi-pedaqoji fəaliyyətinə və nəşr etdikləri elmi-metodiki işlərinə görə "professor" elmi adını almışdır.

Professor Rəna Mustafayeva 60 elmi əsərin, o cümlədən 1 dərs vəsaitinin və 2 monoqrafiyanın müəllifidir. Onlardan bir çoxu xarici ölkələrdə dərc olunmuş, mötəbər elmi forumlarda məruzə edilmişdir. Sözügedən monoqrafiyalar kimya texnologiyasının aktual məsələlərinə həsr olunmuş sanballı əsərlərdir. 2012-ci ildə "LAP LAMBERT Academic Publishing" nəşriyyatı tərəfindən rus dilində nəşr olunmuş "Seolitli katalizatorlar alkilləşdirmə proseslərində" Əsaslar, konsepsiyalar metodlar" adlı monoqrafiyada professor Rəna Mustafayevanın neft-kimya sintezinin strateji vacib məhsullarının (benzolun, ksilolun, stirolun, etilbenzolun və s.) alınması üçün yeni, yüksək səmərəliliyə malik katalizatorların alınmasına həsr olunmuş 20 illik tədqiqatının nəticələri əks olunmuşdur. Kimya elmləri namizədləri Zərifə Salayeva və Heydər Məmmədəliyevlə birlikdə "Elm" nəşriyyatında rus dilində çap olunmuş "Alkilaromatik karbohidrogenlərin çevrilməsi proseslərində katalitik sistemlər" adlı monoqrafiya uzun illər boyu Ümumittifaq Olefinlər İnstitutunun və AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun laboratoriyalarında müəlliflərin yüksək səmərəliliyə malik katalitik sistemlərin yaradılması istiqamətində apardıqları elmi-tədqiqat və praktiki işlərin nəticələrini ehtiva edir. Hər iki monoqrafiya mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Professor Rəna Mustafayevanın 2007-ci ildə nəşr etdirdiyi "Kinetika və kataliz" adlı kitab Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki Şurasının Kimya və kimya texnologiyası bölməsi tərəfindən dərs vəsaiti kimi istifadəyə tövsiyə edilmişdir.

Professor Rəna Mustafayeva 2013-cü ilin sentyabrında SOCAR-ın mühüm layihələrindən biri olan Bakı Ali Neft Məktəbinə dəvət almış və Ali təhsildən sonrakı təhsil (doktorantura) şöbəsinin rəisi vəzifəsində elmi-təşkilatçılıq fəaliyyətinə başlamışdır. Azərbaycanın ali təhsil müəssisələrinin ailəsinin gənc üzvü olan Bakı Ali Neft Məktəbi Rəna xanımın intellektual potensialından gənclərin yararlanması üçün geniş imkanlar açmışdır. Şöbənin fəaliyyətinə birbaşa magistratura səviyyəsində mütəxəssis hazırlığı olduğunu əsas tutaraq professor Rəna Mustafayeva dərhal Avropanın və ABŞ-ın aparıcı təhsil müəssisələrində həyata keçirilən magistr hazırlığı proqramlarının təhlilinə başlamış və bu sahədə zəngin verilənlər bazasının yaradılmasının əsasını qoymuşdur. Bu müddətdə Bakı Ali Neft Məktəbinin əməkdaşlıq əlaqələri qurduğu ali təhsil ocaqları ilə magistratura təhsilinin müxtəlif aspektləri müzakirə edilmişdir. Hazırda onun rəhbərliyi altında Neft-qaz mühəndisliyi və Kimya mühəndisliyi kafedralarının professor-müəllim heyəti müvafiq ixtisaslar üzrə magistraturaya qəbul proqramlarının hazırlanması və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına təqdim etmək üçün test suallarının tərtibatı üzərində çalışır. Bu proqramlar hazırda bakalavriat səviyyəsində Böyük Britaniyanın Heriot-Vatt Universitetinin tədris proqramları əsasında təhsil alanlar üçün mühəndislik üzrə magistr (Master-Engineer) və ölkənin digər texniki ali təhsil müəssisələrinin müvafiq ixtisaslarının məzunları üçün elm üzrə magistr (Master of Science) hazırlığını nəzərdə tutur.

Daim həyata keçirilən tədbirlərin mərkəzində olmağa can atan professor Rəna Mustafayeva Bakı Ali Neft Məktəbinin quruculuq işlərinə, Bibiheybətdə tikilən kampusdakı kimya yönümlü laboratoriyaların yaradılmasına dəyərli töhfələr verir, bir sıra fənlərin materiallarının hazırlanmasında iştirak edir. O, gələcəkdə magistraturada təhsil alacaq gənclərin seçimini vacib hesab edərək bakalavriat səviyyəsində təhsil alan tələbələrin elmi fəaliyyətə cəlb olunmasına bilavasitə rəhbərlik edir, hər bir gəncə kamil mütəxəssis və alim olmaq üçün Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinə qoşulmağı tövsiyə edir, bu işi və ənənəvi tələbə konfranslarını təşkil edir.

O, hazırda dünyada təşəkkül tapmış ömürboyu təhsil konsepsiyasının perspektivlərini düzgün qiymətləndirərək rəhbərlik etdiyi şöbənin fəaliyyətini dünya standartları səviyyəsində təhsil etmək məqsədilə Bakı Ali Neft Məktəbinin rəhbərliyinə bir sıra dəyərli təkliflər vermiş və onların müzakirəsi nəticəsində SOCAR-ın rəhbərliyi Ali Məktəbdə ölkədə ilk olaraq Ömürboyu təhsil fakültəsinin yaradılmasına razılıq vermişdir. Hazırda bu fakültə biliklərin yayılmasında ömürboyu təhsil konsepsiyasının müddəalarının praktikada tətbiqi istiqamətində dekan, professor Rəna Mustafayevanın rəhbərliyi altında ölkə vətəndaşları və əcnəbilər üçün stajkeçmə, ixtisasartırma, yenidənhazırlama kursları, seminarlar, konfranslar təşkil edir.

İş yoldaşları ona mehriban, qayğıkeş, hər an köməyə gələn, səxavətli, üzügülər bir həmkar kimi hörmət və ehtiram bəsləyirlər. Rəna xanım heç vaxt biganəlik nümayiş etdirmir, hər kəsin probleminə öz problemi kimi yanaşır, hər kəsin yanında olmağa çalışır. Onunla işləmək həm çox asan, həm də çox məsuliyyətlidir, çünki Rəna xanım nə qədər yumşaq xasiyyətli olsa da, bir o qədər ciddidir, nöqsanları açıqlamaqdan heç vaxt çəkinmir.

Professor Rəna Mustafayevanın portretinin tamam olması üçün onun ölkəmizdə insan potensialının inkişafına verdiyi töhfələri xüsusən qeyd etmək lazımdır. Rəna xanımın böyük oğlu Emil Plexonov adına Rusiya İqtisadiyyat Akademiyasının məzunudur, orada aspiranturanı bitirərək "Maliyyə, pul tədavülü və kredit" ixtisası üzrə iqtisad elmləri namizədi elmi dərəcəsini almışdır, Moskvada bank sistemində çalışır.

Kiçik oğlu Rüstəm Bakı Dövlət Universitetini "Beynəlxalq hüquq" ixtisası üzrə bakalavriat səviyyəsinin, Türkiyənin Mərmərə Universitetinin isə magistratura səviyyəsinin məzunudur. Hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzində müşavir vəzifəsində işləyir.

Bakı Ali Neft Məktəbinin rəhbərliyi, professor-müəllim heyəti və tələbə ictimaiyyəti professor Rəna Mustafayevanın təcrübəsindən uzun illər boyu bəhrələnmək niyyətindədir.

Bu il Rəna xanımın elmi fəaliyyətinin 25 illiyi tamam olur.

Həmkarımızı bu əlamətdar hadisə və ad günü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, firavanlıq, nəvə-nəticə sevinci, elmi-təşkilatçılıq fəaliyyətində böyük uğurlar diləyirik!

**Elmar Qasımov,**
Bakı Ali Neft Məktəbinin rektoru, Əməkdar Müəllim